Vidadi Babanlı

# VİCDAN SUSANDA

qanun nəşriyyatı

**Vidadi Babanlı. VİCDAN SUSANDA**
Bakı, Qanun Nəşriyyatı, 2024, 672 səh.

Janr: bədii ədəbiyyat, roman
Yaş qrupu: 18+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 24.10.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Korrektor: | Bəsti Məmmədova |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-66-2

© Qanun Nəşriyyatı, 2024

Romanda yüksək vətəndaşlıq, nəciblik, xeyirxahlıq hissləri ilə cılızlıq, paxıllıq, sırf şəxsi mənafe güdən bədxahlıq kimi çirkin əməllər qarşı-qarşıya durur. Güzəştsiz ölüm-dirim çarpışması gedir. Bir sözlə, köhnəliklə təzəlik tərəfdarları "döyüşür". Bu vuruşda iki vicdan, iki əqidə, iki psixologiya üz-üzə dayanır. Birinci qütbdə təmiz əxlaq, saf vicdan sahibləri; vətənə, xalqa, cəmiyyətə, ümumilikdə bəşəriyyətə təmənnasız xidmət edənlər: professor Söhrab Günəşli və onun istedadlı aspirantı Vüqar Şəmsizadə böyük əzmlə, inadla elmi nailiyyətlərini sübuta yetirməyə cəhd göstərirlər. Yeni avtomobil yanacağı axtarışındadırlar. Təzə ixtira izinə düşüblər.

İkinci qütbdə isə vicdanlarını susdurmuş xudbinlər, elmə – yaradıcı aləmə dal qapıdan fırıldaqla, qeyri-məqbul üsullarla gəlmiş kütbeyinlər: Bəşir Bədirbəyli, Ziya Lələyev, istedadsız aspirant İsmət çarpışırlar. İşləri-peşələri müxtəlif çirkin yollar, üsullarla Söhrab Günəşliyə və onun aspirantına mane olmaq, apardıqları elmi təcrübələrə əngəllər törətmək, pərsəng olmaqdır.

"Vicdan susanda" romanında sevgi-məhəbbət xətti çox canlı, maraqlı, yaddaqalan detallar, boyalarla tərənnüm olunur; əsərin əvvəlindən son səhifələrinədək davam edir, hadisələri oxucuya gərgin maraqla izlətdirir.

Bu roman yuxarıda göstərilən bədii keyfiyyətlərinə görə həm öz respublikamız daxilində, həm də xarici ölkələrdə müəllifinə böyük məhəbbət qazandırıb.

# BİRİNCİ KİTAB

# BİRİNCİ HİSSƏ

## Birinci fəsil

O, ağ mərmər pillələri cüt-cüt qalxdı. Hündür divarlarına ana və uşaq barelyefi həkk olunmuş köhnə, lakin yaraşıqlı binanın üçüncü mərtəbəsində əylənib tövşüyünü dərdi. Qız cığalarıtək halqa-halqa olub alnına tökülmüş sıx, qıvrım saçını hər iki ovcu ilə yatımına sığallayıb, ürəyinin şiddətli döyüntüləri sakitləşməyincə yerindən tərpənmədi. Sonra asta-asta irəli gəldi; qalın, kvadrat lövhəcikdə zərli hərflərlə “professor Söhrab Günəşli” yazılmış qapıya yaxınlaşdı. Sağ əlini ehmalca qaldırıb küncdə qara ləkə kimi görünən elektrik düyməciyinə uzatdı. Ancaq titrək barmaqları düyməciyə toxunmadı, sürüşüb yavaş-yavaş yanma düşdü.

O, bir addım geri çəkildi. Şalvar cibindən qatı açılmamış yaylıq çıxartdı. Tələsmədən boyun-boğazının tərini silib, üst-başına diqqət yetirdi və əlini düyməciyə yenidən uzatdı.

Ağır, xonçalı qapı səssizcə aralandı. Onun arxasından gur, xınalı saçları çiyinlərinə səpələnmiş, bəstəboy bir qadın boylandı.

– Sizə kim lazımdır?

Oğlan həyəcandan udqundu.

– Professor evdədirmi?

Qadın cavab vermədi. Qarşısında başını köksünə əyib dayanmış qarayanız, göyçək oğlanı nə üçünsə təpədən-dırnağa diqqətlə

süzdü. Və kök, buğum-buğum bədənini çətinliklə qanırıb otaqların dərinliyindən kimi isə səslədi.

Uzunətək qış xələti geyib, ortasını boğmalamış boylu-buxunlu, solğunsifət bir kişi aradan çox keçməmiş qadının böyründə göründü. Gicgah tükləri tamam ağarmış, genişalınlı, sakit baxışlı bu adam oğlanın soruşduğu professor Söhrab Günəşlinin özü idi.

– Həə... Sənsən?! – Professor mehribanlıqla gülümsəyib irəli durdu, qapını oğlanın üzünə geniş açdı.

– Buyur, xoş gəlibsən!

Onlar böyük mənzilin uzun dəhlizi ilə yan-yana yeridilər. Lap o başda, banket zalını xatırladan geniş bir otağa daxil oldular. Burada ağ süfrəli, açma stol arxasında çox nurani bir qoca ilə ağbənizli, yeniyetmə bir qız əyləşmişdi. Ortaya təzəcə qoyulmuş dərin, zərli boşqablarda buğlanan xörəklərə hələ əl dəyməmişdi.

Professor qonağını süfrəyə yaxın apardı, onu atasına və qızına sevinclə təqdim etdi. Mətbəxdə ləngiyib, içəri elə indicə ayaq basmış bayaqkı qadına isə ucadan:

– Mənim təzə aspirantım Vüqar Şəmsizadə bax, bu oğlandır, – deyib fərəhini ondan da gizlətmədi. – Yadımdan çıxdı, bayaq sizi tanış etmədim... bağışla.

Qadının iri, badamı gözləri qəribə şəkildə girdələndi, donuq çöhrəsi bircə anda dəyişib şirin təbəssüm nurunda çimdi.

– "İgidin adını eşit, üzünü görmə" deyiblər. Amma sizin adınızı da eşitməyə, üzünüzü də görməyə biz çox şadıq. Həmişə siz gələsiniz! – O, yekə gövdəsinə uyuşmayan bir çevikliklə oğlana lap yaxın getdi, əl verib, sidq-ürəklə görüşdü. – Bəs niyə ayaq üstə durmusunuz?.. Oturun, xahiş eləyirəm.

Vüqar oturmaq istəmədi. Hazır süfrə üstə gəlib çıxması onu lap utandırmışdı, qıpqırmızı qızarmışdı. Qadın ora-bura boylandı, cumub kənardan yumşaq kürsü götürdü, sürütləyə-sürütləyə oğlanın yanına gətirib, ona bir də minnət elədi.

– Əyləşin, əyləşin!

Vüqar həyəcandan dili-dodağı əsə-əsə ev sahibəsinə razılığını bildirdi və professora tərəf çevrilib, bu vaxtsız "təşrifinin" səbəbini tələm-tələsik izaha başladı:

– Eşitdim bu gün institutda məni axtarıbsınız... Gəldim ki...

Professor onu eşitmək istəmədi:

– Gəlibsən, çox gözəl eləyibsən. Buyur, bizimlə çörək kəs. İş barəsində sonra danışarıq.

– Çox sağ olun. Mən ac deyiləm.

– Di yaxşı, höcət eləmə! – Professor Vüqarın çiynindən yüngülcə aşağı basdı, həlim səsi ciddiləşdi. – Elimizin-obamızın adəti var. Qonaq nə qədər tox olsa da, ev yiyəsinin təklifini yerə salmaz!

Vüqar çıxılmaz vəziyyətdə qaldı. Bundan sonra da "tərslik" etsə, professor yəqin ki, inciyərdi, Candərdi əyləşdi. Amma özünü sakitləşdirə bilmədi. Elmi rəhbərinin yanında həmişə həyalı, pərdəli davranmışdı. Professor Günəşli olan yerdə bir qurtum su da içməmişdi.

İndi həmin adamla süfrədə qabaq-qənşər oturmaq, gözü gözünə baxa-baxa çörək kəsmək, əlbəttə, asan məsələ deyildi!

Aspirantının daxili narahatlığını Günəşli hiss etməmiş deyildi. Təbiətən utancaq oğlanın keçirdiyi həyəcanlar onun pörtmüş sifətindən də aydınca oxunurdu. Professor gülümsünüb əvvəlki həlimliklə:

– Stulunu irəli çək, – dedi, – mehriban otur. Bəlkə, sənin xətrinə bizim Mərhəmət xanım insafı arada görüb, iştaha açmaq üçün bir şey tapıb gətirdi.

Mərhəmət xanım qımışdı, eyhamı anlamışdı. Bərk əl-ayağa düşdü. Ayrı vaxt olsaydı, o, bəlkə də, əri ilə söz-söhbətə gələrdi, içki məsələsini qəti rədd edərdi. Ancaq indi bir kəlmə dinmədi. Qonağın qabağına əvvəlcə çəngəl-bıçaq düzdü, ona xörək çəkdi. Sonra da yırğalana-yırğalana yan otağa keçib, haçandansa qalma bir şüşə əla şərab və iki büllur piyalə ilə qayıtdı.

Professor Vüqara göz vurdu.

– Fikir verdin!.. Bax, sən olmasaydın, bu şərab şüşəsinin üzünü biz ömürbillah görməyəcəkdik! – deyib gülə-gülə yarızarafat, yarıgerçək arvadına sataşdı. – Belə hesab elə ki, daşdan bir çarpanaq qopartdıq.

Mərhəmət xanım ərinin sözündən alındı. Çox ciddi halda:

– Ürəyin xəstədir, sənə içmək olmaz! – dedi.

– Əlbəttə, əlbəttə!.. Bəhanə həmişə tapılar.

Mərhəmət xanım ərköyünlüklə silkələndi. Vüqardan üzr istədi:

– Siz bunun dediklərinə əhəmiyyət verməyin, xahiş eləyirəm. Xasiyyətidir, evə kənar adam gələndə kefi durulur, öz zarafatından qalmır.

Həqiqətən kefi durulmuş professor Vüqara bir də göz vurdu.

– Elədir, – dedi. – Bizim Mərhi düz buyurur. Çünki kənar adam gələndə gözümüz azdan-çoxdan belə-belə şeylər görür, kefimiz açılır. Yoxsa bu cür ləziz nemətlərə tamarzıyıq.

Mərhəmət xanım kirpiklərini titrədib, ərinə incik-incik baxdı. Professor arvadının qırımını anlayıb, daha danışmadı. Mərhəməti cırnatmaq işin zərərinə idi. O, piyalələrə şərab süzüb, yumşaq kürsüdə büzüşmüş Vüqarı astaca dümsüklədi.

– Nə fikrə gedibsən?.. Soyutma görək!

Vüqarı dəhşət bürüdü. Professorla stəkan-stəkana vurub şərab içsin?!. Bu necə ola bilər?.. Bəlkə, professor onu sınayır, qanacağını öyrənir?

Vüqar nə edəcəyini bilmədi. Yanaqlarının qızartısı bir az da tündləşdi. Bayaqdan susub, gənc qonağı çal, pırtlaşıq qaşlarının altından oğrun-oğrun süzən qoca söhbətə qarışdı.

– Utanma, oğlum. Hazır süfrə üstünə gəlmək yaxşı əlamətdir. Görünür, qayınanan səni çox istəyəcək...

Mərhəmət xanım cəld müdaxilə etdi:

– Əlbəttə, çox istər! – deyib qayınatasının el məsəli sözünü gerçəklətdi. – Belə gözəl gələcəyi olan kürəkəni hansı qayınana istəməz?! – Sonra da gizli maraq içində Vüqardan soruşdu: – Xəbər almaq ayıb olmasın, evlisiniz, yoxsa hələ?..

Vüqar xəcalətdən udquna-udquna, dili dolaşa-dolaşa, hələ evlənmədiyini söylədi.

Mərhəmət xanım cavabdan razı qaldı. Qəddini düzəldib, arxayın nəfəs aldı. Sanki nəyinsə intizarından qurtarmışdı.

– Çox ağıllı iş görürsünüz. Tez evlənmək bir şey deyil. Aspiranturanı bitirin, müdafiənizi eləyin, sonra allah xeyir versin... Hə, di başlayın. Xörəyiniz buza döndü.

Vüqar tər içində üzürdü. Ürəyi sıxılmağa başlamışdı. Professorun təkidi, Mərhəmət xanımın xahiş-minnətilə ölüm-zülüm piyaləsini yarıyacan içdi. Xörəkdən də üç-dörd tikə dadıb, ayağa durdu. Daha bircə saniyə də olsa, oturmağa halı yox idi, üzülüb qurtarırdı.

– İcazə verin, mən gedim... İşim var.

Günəşli etiraz etmədi. Oğlanı məclis tutmuşdu, qırışığı heç açılmırdı. Bu vəziyyətdə onu məcbur edib saxlamaq əzab verməkdən başqa bir şey deyildi.

– İxtiyar özünündür. Təcili işin varsa, get, – dedi. – Amma sabah işə bir az tez gəl. Saat onda şöbəmizin elmi şurasını çağırmışıq. Aspirantların iş planları müzakirə olunacaq. Səni də elə bundan ötəri axtarmışdım. İstəyirdim, ikilikdə əyləşib, planını bir də nəzərdən keçirək. Nə isə... get, dincəl. Səhər institutda görüşüb şuraya qədər işimizi qurtararıq.

Qonağı Mərhəmət xanım yola saldı. Pilləkənədək onu müşayiət edib, ayrılanda bərk-bərk əlini sıxdı. Xüsusi hörmətlə:

– Birdəfəlik getməyin. Haçan ürəyiniz istəsə, buyurun, gəlin. Gözümüz üstündə həmişə yeriniz var! – dedi.

* * *

Vüqar uca, dolanbac pillələri necə düşdüyündən xəbər tutmadı. Gözlərini açanda özünü birinci mərtəbədə gördü. Ayaq saxlayıb, boğazını sıxan qalstuku boşaltdı, yaxasını büsbütün açdı. Alt köynəyi suya batıb çıxmışdı.

O, pencəyini soyundu. Səliqə ilə büküb sol qolunun üstünə atdı. İki-üç dəfə dərin, ciyər dolusu nəfəs aldı. Çiyinlərindən elə bil dağ ağırlığında bir yük götürülmüşdü. Tam özünə gəlincə tərpənmədi. Sonra dönüb iftixarla altdan yuxarı boylandı. Daxilində aşıb-daşan fərəh dodaqlarında səyridi.

– Sevin, yetim Vüqar, sevin! Gör üzünə necə qapılar açılır, necə xoşbəxt günlərin başlayır?! – deyə öz-özünə pıçıldadı. – Hələ bu harasıdır?!. Aylar, illər ötəcək, vaxt gələcək, belə gözəl binaların birində də sən yaşayacaqsan. Sənin də mənzilinin qapısına iri hərflərlə professor filan-filankəs sözləri yazılacaq... Pəh-pəh...

Vüqar xəyalından keçənləri bir anlığa gözləri önünə gətirdi. Sevinci lap aşıb-daşdı. Quş kimi qanadlanıb özünü bayıra atdı. Kənarlarında körpə çinar ağacları cərgələnmiş, seyrək gediş-gəlişli küçənin hamar səkisində əl-qolunu yellədərək, iti-iti addımladı.

Hava təzəcə qaralmışdı. Elə indicə alışmış qatar-qatar lampalar nəhəng köksünü şəhərin üstünə gərmiş zümrüd səmanın parlaq ulduzlarına qarışıb sayrışırdı. Bakının şairanə gecələrindən biri, bəlkə də, ən füsunkarı başlayırdı.

Həyəcanlı Vüqar bu bahar nəfəsli, sərin payız axşamının gözəlliyini duymadı. O, qəlbini təlatümə gətirmiş sevincini kiminləsə bölüşməyə tələsirdi. Elə tələsirdi ki, gözləri ayaqlarının altını seçmirdi.

O, küçənin qurtaracağına qədər eyni sürətlə gedib, buradan ayrı səkiyə keçmək istəyəndə qulaqlarının dibində sanki bomba partladı. Qəzəbli bir səsdən ayaqları yerə mıxlandı:

– Korsunuz, nədir?!. Gözünüz hayana baxır?!

Vüqar yuxudan sərsəm oyadılmış adam vəziyyətində qaldı. Nə hadisə baş verdiyini anlamadı. İkicə addımlığında özünü qurudub heykəltək dayanmış yad qadının üzünə mat-mat baxdı.

– Kim?.. Mən?! – deyə adi heyrətlə soruşdu.

Qadın hiddətləndi.